Humanizm və xeyirxahlığın mücəssəməsi

Azərbaycanın dünyada tanıdılması, mədəniyyətimizin təbliği, təhsilin və səhiyyənin inkişafı, genefondumuzun və ekologiyanın qorunması, ehtiyacı olanlara kömək, insanlara təmənnasız yaxşılıq…. Bütün bunlar Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın xalqa xidmət missiyasının əsas istiqamətlərindəndir. Mehriban Əliyevanın təşəbbüsləri ilə humanitar, elm və təhsil, sosial, idman, mədəniyyətlər və sivilizasiyalararası dialoq və digər istiqamətlərdə həyata keçirilən tədbirlər həm ölkədə, həm də onun hüdudlarından kənarda rəğbətlə qarşılanır. Ən əsası bu tədbirlər dövlət siyasətinin daha yüksək uğurlar qazanmasında böyük rol oynayır.

Mehriban Əliyeva üçün əziz olan bu tarixdə Milli Məclisin deputatları da öz fikirlərini qəzetimizlə bölüşdülər.

Dövlətə və vətəndaşlara xidmət məramı

Hicran HÜSEYNOVA,
Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri:

- Hər bir cəmiyyətin həyatında qadınların özünəməxsus yeri, böyük rolu olub. Azərbaycan qadını tarixin bütün dövrlərində öz yaradıcılığı, zəngin fəaliyyətləri ilə seçiliblər. Müasir mərhələdə isə Azərbaycan qadınları dövlətin idarə edilməsində keyfiyyətcə yeni səviyyədə iştirak edir, siyasi, elmi, təhsil, iqtisadi, mədəni və başqa sahələrdə daha aktiv fəaliyyət göstərirlər. Bu mənada Azərbaycanın birinci xanımı və Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bütün qadınlar üçün örnəkdir.

Humanizm, şəfqət, xeyriyyəçilik, yaradıcılıq bütün bunlar Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın həyat fəlsəfəsinin əsasını təşkil edir. Müasir müstəqil Azərbaycanın inkişafına xidmət etmək, sosial məsələlərin həlli, milli-mənəvi dəyərləri, tarixi-mədəni irsi qorumaq, yardıma möhtac olanlara dəstək olmaq - bütün bu və qeyd etmədiyimiz digər yüksək keyfiyyətlər Mehriban xanımın fəaliyyətinin əsasıdır.

Onun bütün layihələrinin mərkəzində - İnsan dayanır. Birinci xanım Azərbaycan ailəsinin problemlərini həmişə diqqət mərkəzində saxlayır, ölkədə ailə, qadın və uşaq problemlərinin həllinə böyük dəstək verir. Xalq arasında böyük nüfuzu olan Mehriban Əliyeva Birinci vitse-prezident kimi də özünəməxsus bir yol gedir. Cəmiyyətdəki fərqli siyasi qrupları, müxtəlif düşüncənin və fikirlərin sahibi olan hər kəsi diqqətdə saxlayır, onları dinləyir, narazı olduqları məsələlərin həll edilməsi sahəsində də xüsusi bacarıq nümayış etdirir, əhəmiyyətli təşəbbüslər göstərir. Bununla da Mehriban xanım Azərbaycanda ictimai sabitliyin təmin olunmasına öz layiqli töhfəsini verir.

Mehriban Əliyeva rəhbəri olduğu Heydər Əliyev Fondu vasitəsilə Avropa və dünyada bir sıra ciddi və xüsusi mahiyyət daşıyan mədəni və sosial layihələrə verdiyi dəstəklə diqqəti Azərbaycana yönəltməyi bacardı. Azərbaycanda baş verənləri, əsl həqiqətləri dünyaya çatdırmaq üçün bütün imkanları səfərbər edir. Mehriban xanım ölkəmizdə və dünyada xeyriyyəçi, humanist, mədəniyyətə, tarixə, idmana xüsusi qayğı ilə yanaşan, elm, təhsil, səhiyyə, ekologiya sahələrində respublikada və beynəlxalq miqyasda böyük layihələr həyata keçirən prinsipial və peşəkar ictimai xadimdir. Milli mədəniyyətin inkişafına, başqa xalqların mədəniyyətinin qorunmasına və mədəniyyətlərarası əlaqələrin inkişafına böyük töhfələr verən Mehriban xanım həm də yüksək səviyyədə sivilizasiyalar və dinlərarası dialoqun reallaşması üçün böyük əmək sərf edir. Azərbaycanın Birinci xanımı sülh və tolerantlığın yayılması, bütün dünyada humanist dəyərlərin bərqərar olması üçün müntəzəm tədbirlər həyata keçirir. Onun çoxşaxəli fəaliyyətini beynəlxalq təşkilatlar da yüksək dəyərləndirirlər.

Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyəti, elmi və incəsənətinin bütün sahələrinə qayğı göstərir. Onun təşkilatçılığı ilə ölkənin tanınmış alimlərinin və incəsənət xadimlərinin yaradıcılığının təbliği istiqamətində əvəzedilməz proqramlar reallaşır. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunmasını, Nəsirəddin Tusinin anadan olmasının 800 illik, şərqşünas alim Mirzə Kazımbəyin 200 illik, tanınmış rəssam Səttar Bəhlulzadənin, məşhur yazıçı və pedaqoq Mir Cəlal Paşayevin, akademiklər Yusif Məmmədəliyev və Musa Əliyevin 100 illik yubileylərinin keçirilməsinin də müəllifi məhz Mehriban xanım Əliyevadır. UNESCO-nun "Dünya irs siyahısı"na İçərişəhərin Şirvanşahlar Saray Kompleksi ilə birgə daxil edilməsi onun təşəbbüsü ilə gerçəkləşmisdir. Bütün bu layihələr Azərbaycan mədəniyyətinin təbliğinə əvəzsiz töhfələr verməklə yanaşı, onun nümunələrinin qorunmasına da xidmət edir. Tarixboyu bədnam qonşularımız Azərbaycan mədəniyyəti nümunələrini öz adlarına çıxarmağa çalışıblar. Mehriban xanım milli mədəniyyətin təbliğatçısı olmaqla yanaşı, həm də onun fəal qoruyucusudur. Belə ki, bu maddi və mənəvi mədəniyyət nümunələrinin əsl sahibinin Azərbaycan və azərbaycanlıları olduğunu bütün dünyaya çatdırır. Uzun bir fasilədən sonra ilk dəfə Şuşada "Xarıbülbül" festivalı keçirilmişdir. Bu möhtəşəm festivalın bütün təşkilatı işləri, ən xırda detallarına qədər, çox incəliklə Heydər Əliyev Fondu və onun Prezidenti Mehriban Əliyeva tərəfindən hazırlanmışdır.

Mehriban xanım çıxışlarında qeyd edirdi ki, "nə qədər Qarabağ, Şuşa işğal altındadır, biz hamımız qarabağlıyıq, şuşalıyıq". Bu sözlər ürəkdən deyilən sözlər idi. Bu, eyni zamanda təkcə sözlər deyil idi, həm də çağırış idi. Mehriban Əliyevanın 44 günlük Vətən müharibəsi zamanı xalqımıza müraciətləri, yaralı əsgərlərimizi ziyarət etməsi bir daha göstərdi ki, hər zaman olduğu kimi, o, insanları haqq işi uğurunda mübarizəyə səsləyir, bir ana, bacı həssaslığı, qayğısı nümayiş etdirir. Birinci vitse-prezident Mehriban Əliyeva tarixi Qələbə münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşımında xalqımızı, dünya azərbaycanlılarını təbrik edərək bildirdi ki, "Vətənimizi müdafiə edən, onu dirçəldən nəslin işıqlı xatirəsi, bu nəslə hörmət və ona görə səmimi qürur hissi hər bir azərbaycanlının qəlbində həmişəlik qalacaq". Bəli, bizim şəhidlərimizə, qazilərimizə, Vətən müharibəsi iştirakçılarına minnətdarlıq hissimiz sonsuzdur. Mehriban xanım daim bir ictimai xadim və dövlət məmuru kimi həlak olanların ailələrinə lazımi köməyi göstərir. Yaralı əsgərlərin sağalması və normal həyata qayıtması üçün nə mümkündürsə edir.

Bu gün doğma Qarabağ və Şərqi Zəngəzur torpaqlarında geniş quruculuq işləri aparılır, 30 ildə erməni vandalları tərəfindən dağıdılan evlər, sosial infrastruktur, talan olan ərazilər, meşələr, tarixi-mədəni-dini abidələr yenidən tikilir, qurulur. Bu işlərdə də şəxsən Mehriban xanımın xüsusi yanaşmasını hiss etməmək mümkün deyil. Onun tapşırıqları əsasında həyata keçirilən layihələr tezliklə Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcək, bir çox beynəlxalq tədbirlərin keçiriləcəyi yer olacaqdır.

Praqmatiklik, kreativlik, siyasi çeviklik, yüksək erudisiya, alicənablıq, humanizim kimi ali şəxsi keyfiyyətlərə malik olan, milli köklərimizə, bəşəri ideyalara daim sadiq qalan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Vətənimizin və xalqımızın taleyində bundan sonra da müstəsna rol oynayacaq, ölkəmizin inkişafına yeni və davamlı töhfələr verəcək. Onun dövlətçiliyimizə, xalqımıza xidmət etmək istəyi, arzusu bizdə olan bu inamı daha da gücləndirir. Biz bu yolda ona uzun ömür, cansağlığı və böyük uğurlar arzulayırıq.

İnsanlıq nümunəsi

Novruzəli ASLANOV,
Milli Məclisin deputatı,
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti:

- Azərbaycanın zəngin keçmişində, tariximizdə cəmiyyətin ümumi inkişafına böyük töhfələr verən qadınlar az olmayıb. Siyasətdə, ədəbiyyatda, mədəniyyətdə, incəsənətdə, elmdə öz sözlərini deyən Azərbaycan qadınları həm də at belində düşmənə qarşı mübarizə aparıblar

Tarixi ənənələrimizi, xalqımızın özünəməxsus yüksək dəyərlərini bu gün də Azərbaycan qadınları layiqincə yaşadır və gələcəyə doğru daşıyırlar. Təsadüfi deyil ki, müasir Azərbaycan qadını dünyanın ən qayğıkeş, ən gözəl anası olmaqla yanaşı, həm də siyasətçidir, alimdir, məmurdur, iş adamıdır. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın timsalında Azərbaycan qadınının daşıdıcı yüksək mənəvi keyfiyyətlər daha aydın görünür. Dövlətə xidmət missiyasının ən gözəl nümunələrini yaradan Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti bütün dünyada Azərbaycan qadınının ən gözəl obrazını formalaşdırıb.

Mehriban xanım Əliyevanın müasir tariximizə yazılan çox yüksək xidmətləri var. Onun təşəbbüsü və rəhbərliyi ilə görülmüş, indi də görülməkdə olan işlərin hər biri böyük tarixi salnamədir. Bununla belə əgər əhəmiyyətinə görə sıralasaq, zənnimizcə bütün bu işlərin ön sırasında Mehriban xanım Əliyevanın öz şəxsiyyəti ilə yaratdığı əsl insanlıq nümunəsi gələcək. Belə bir şəxsiyyət nümunəsi isə cəmiyyətin həmrəyliyi və onu ali dəyərlər işığında bir araya gətirmək üçün çox önəmlidir.

Respublikamızın Birinci vitse-prezidenti olmaqla yanaşı, Heydər Əliyev Fonduna, Azərbaycan Mədəniyyətinin Dostları Fonduna, Gimnastika Federasiyasına rəhbərlik edən Mehriban xanım Əliyevanın fəaliyyəti çoxşaxəlidir. Bu fəaliyyət hər addımda Ulu Öndər Heydər Əliyevin xalqımızın işıqlı gələcəyinə yönəlmiş ideallarının reallaşmasına, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi, sosial-iqtisadi, mədəni-humanitar kursun dəstəklənməsinə və uğur qazanmasına xidmət edir. Xüsusilə qeyd etməliyik ki, 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu xeyriyyəçiliyin ən gözəl nümunələrini yaradıb, təhsil və səhiyyə sahələrində tariximizdə görünməmiş layihələri reallaşdırıb, Azərbaycanın dünyada ən dolğun təbliğatını həyata keçirib.

Prezident İlham Əliyevin sərəncamı ilə 2017-ci ilin fevral ayında Birinci vitse-prezident vəzifəsinə təyin edilməsində, ilk növbədə, Mehriban Əliyevanın ölkəmizin ictimai-siyasi, mədəni həyatında oynadığı müstəsna xidmətlərin mühüm rolu oldu. Mehriban Əliyevanın ölkəmizin tərəqqisi istiqamətində göstərdiyi fəaliyyətin müstəsnalığını Prezident İlham Əliyevin fikirləri də təsdiqləyir: "Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır... Çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda, çox xeyirxah bir insandır və təsadüfi deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır. Bütün bu sadaladığım amilləri nəzərə alaraq mən bu qərara gəldim. Bu gün Mehriban Əliyevanın həyatında yeni bir dövr başlayır və əminəm ki, ölkəmizin inkişafında bundan sonra da öz dəyərli töhfəsini verəcək".

10 aya yaxındır ki, hamımız Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının qürurunu və sevincini yaşayırıq. 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qəhrəman əsgər və zabitlərimizin şücaəti sayəsində azad edildi. Azərbaycanın möhtəşəm Zəfəri ilə başa çatan Vətən müharibəsi Mehriban Əliyevanın öz ölkəsinə nə qədər bağlı olduğunu göstərdi, yüksək vətənpərvərlik keyfiyyətlərini bir daha təsdiq etdi. Müharibənin davam etdiyi günlərdə kənd və şəhərlərimiz azad olunduqca bizlər Mehriban Əliyevanın tarixi qələbələrimizlə bağlı həssas münasibətinin şahidi olduq. Hələ Vətən müharibəsinin ilk günlərində Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində ordumuzun cəbhədə qazandığı qələbələrlə bağlı paylaşımında deyilir: "Bütün Azərbaycan xalqını və bizim qələbələrimizə sevinən hər kəsi səmimi-qəlbdən təbrik edirəm. Vətən yolunda canından keçmiş qəhrəman şəhidlərimizə Allah rəhmət eləsin! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!" Bu, Mehriban Əliyevanın timsalında bütün Azərbaycan qadınlarının sevinci və duası idi...

Döyüşlərdə yaralanan, sağlamlıqlarını itirən qəhrəman oğullarımızın müalicəsi, bu məqsədlə Türkiyə göndərilməsi birbaşa Mehriban Əliyevanın nəzarətində oldu və bu proses indi də davam etməkdədir.

Müharibədən sonra azad edilmiş ərazilərimizdə genişmiqyaslı quruculuq işləri başlayıb. Artıq Şuşada həyat qaynamağa başlayır, Füzuli hava limanına təyyarələr enir, Laçında, Kəlbəcərdə işıq yanır, Qarabağda tarixboyu olmamış yeni yollar çəkilir, bulaqlarımız yenidən çağlayır. Prezident İlham Əliyevin indiyədək azad olunmuş ərazilərimizə 10 dəfə səfər etməsi dövlət başçısının Qarabağın dirçəldilməsi ilə bağlı xüsusi diqqətindən xəbər verir. Bütün bu məsələlərdə cənab Prezidentin ən böyük silahdaşı Mehriban xanım Əliyevadır. Azərbaycan ictimaiyyəti Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlarımıza səfərləri ilə bağlı ilk və ən müfəssəl məlumatları məhz Mehriban Əliyevanın yolboyu etdiyi çəkilişlər vasitəsilə alır. Möhtərəm İlham Əliyev erməni vandallarının doğma torpaqlarımızda törətdiklər vəhşilikləri məhz bu görüntülər vasitəsilə bütün dünyaya bəyan edir. Eyni zamanda cənab Prezident bu videogörüntülər vasitəsilə Qarabağın dirçəlişi ilə bağlı planlar və perspektiv məsələlər barədə xalqımıza məlumat verir.

Bütün bu səfərlərdə Mehriban Əliyevanın da iştirakı həm də onun torpaqlarımızın bərpası istiqamətində nümayiş etdirdiyi fəal vətəndaşlıq mövqeyindən irəli gəlir. Təsadüfi deyil ki, Heydər Əliyev Fondu işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulmasında yaxından iştirak edir, tarixi və dini abidələrin, məscidlərin bərpası ilə bağlı layihələr həyata keçirir.

Mehriban Əliyevanın fəaliyyəti dəfələrlə respublikamızın, eləcə də, müxtəlif dövlət və beynəlxalq təşkilatların mükafat və fəxri adlarına layiq görülüb. Lakin onun ən böyük hədiyyəsi xalqın sevgisi, məhəbbətidir. Gördüyü işin haqlı və xeyirli olduğuna inamı isə ən böyük məmnunluğudur. "İnsan gördüyü işin haqlı, xeyirli və lazımlı olduğuna daxilən inandıqda həvəslə işləyir. Fiziki yorğunluq isə mənəvi məmnunluqla ödənilir", - deyə Mehriban Əliyeva bildirir.

Bəli, Mehriban Əliyeva həm Birinci vitse-prezident, həm Heydər Əliyev Fondunun rəhbəri, bütövlükdə isə Prezident İlham Əliyevin silahdaşı kimi daşıdığı bütün siyasi, ictimai və mənəvi vəzifələri layiqincə, böyük uğurlarla həyata keçirir. Ən əsası bu vəzifələrdə həyata keçirilən fəaliyyət Prezident İlham Əliyevin siyasi kursunu tamamlayaraq onun daha böyük uğur qazanmasını təmin edir.

Mehriban xanım Əliyeva üçün özəl olan bir gündə onu təbrik edir, şərəfli dövlətçilik və ictimai fəaliyyətində müvəffəqiyyətlər diləyirik.

Örnəyə çevrilən missiya

Nəsib MƏHƏMƏLİYEV,
Milli Məclisin deputatı:

- Tarixən Azərbaycn qadınları siyasi və ictimai həyatda fəal olublar. Bu gün də qadınlar müxtəlif sahələrdəki fəaliyyətləri ilə ölkəmizdə gedən proseslərə öz töhfələrini verirlər. Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın timsalında isə Azərbaycan qadınının cəmiyyət həyatındakı layiqli yeri, nüfuzu, dövlətə və xalqa xidmət missiyası və işgüzarlığı daha yaxından görünür.

Eyni zamanda xeyirxahlıq məbədi kimi tanınan Heydər Əliyev Fondunun rəhbəri olan, UNESCO və ICESCO-nun xoşməramlı səfiri adını daşıyan Mehriban Əliyeva barədə söz açarkən ilk yada düşən onun insanlara yaxşılığı, qayğısı, ehtiyacı olanlara əl tutması və xeyriyyəçiliyidir. Heç təsadüfi deyil ki, Mehriban Əliyevanın rəhbərlik etdiyi və Ulu Öndər Heydər Əliyevin ideyalarının yaşadılmasına və təbliğinə xidmət edən fond ilk gündən xeyriyyəçiliyi öz fəaliyyətinin prioritet istiqamətlərindən birinə çevirib. Mehriban Əliyeva diqqətini daim əhalinin sosial baxımdan ehtiyacı olan təbəqələrinə, xəstə və valideyn himayəsindən məhrum olmuş uşaqlara kömək göstərilməsinə yönəldir. Eyni zamanda xalqımızın genetik fondunun qorunub saxlanması problemlərinə cəmiyyətin diqqətini cəlb etməyi özünün vətəndaşlıq borcu hesab edir. Buna görə talassemiya və diabet xəstəliklərindən əziyyət çəkən uşaqların müalicəsinə yönəlmiş müxtəlif proqramların həyata keçirilməsini dəstəkləyir.

Heydər Əliyev ideyaları ilə silahlanmış, hər zaman peşəkarlığı, işgüzarlığı və prinsipiallığı ilə seçilən Mehriban Əliyevanı xarakterizə edən digər mühüm göstəricilərdən biri milli-mənəvi dəyərlərimizin qorunmasına və Azərbaycanın dünyada təbliğinə böyük önəm verməsidir. İstər Heydər Əliyev Fondunun prezidenti, istər Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri kimi fəaliyyətinin təhlili göstərir ki, milli mədəniyyətimizin qorunması və dünyada təbliği Mehriban Əliyevanın xalqa xidmət missiyasının əsas istiqamətlərindəndir. Hansı ki, bunlar son nəticədə əsas dövlətçilik məqsədini - Azərbaycanın dünyada tanıdılmasını uğurla təmin edib.

2005-2017-ci illərdə Milli Məclisin deputatı olan Mehriban xanım Əliyevanın millət vəkili kimi fəaliyyəti də parlament tariximizin şərəfli bir səhifəsidir. Seçicilərə diqqət və qayğısı, təmsil etdiyi ərazilərin sosial problemlərinin həlli yönündə gördüyü misilsiz işlərlə əsl millət vəkilliyinin nümunəsini yaradan Mehriban xanım Milli Məclisin müzakirəsinə təqdim etdiyi layihələrlə qanunvericiliyimizin təkmilləşməsinə böyük töhfələr verib. Cəmiyyət üçün ciddi təhlükə törətməyən minlərlə insanın onun təşəbbüskarı olduğu amnistiya aktı layihələri əsasında məhbəsdən azadlığa çıxması Mehriban xanımın deputatlıq fəaliyyətinin xoş məqamı kimi hər zaman böyük rəğbətlə xatırlanır.

İctimai-siyasi vəzifələrlə yanaşı, Mehriban Əliyeva həm də mənim də sıralarında təmsil olunduğum Yeni Azərbaycan Partiyası sədrinin müavinidir. Öz fəaliyyəti ilə partiyanın möhkəmlənməsi, sıralarının artması üçün çox böyük əmək sərf edir. Təbii ki, Mehriban Əliyevanın fəaliyyəti bununla bitmir. Azərbaycanda səhiyyənin, təhsilin, məktəbəqədər təhsilin inkişafında onun gördüyü işlər ölçüyəgəlməz qədər çoxşaxəli və misilsizdir.

Mehriban Əliyeva cənab Prezident İlham Əliyev tərəfindən ona həvalə edilən bütün vəzifələri uğurla yerinə yetirərək Azərbaycanın beynəlxalq imicinin yüksəlməsinə ləyaqətlə xidmət edib. "Eurovision" mahnı müsabiqəsində, I Avropa Oyunlarında, İslam Həmrəyliyi Oyunlarında onun rəhbərlik etdiyi Təşkilat Komitəsi ən yüksək təşkilatçılıq nümunəsini ortaya qoyub.

Mehriban Əliyeva bütün cəhətləri ilə vətəndaşlarımızın rəğbətini və ehtiramını qazanmış siyasi-ictimai xadimdir. Ona görə onun 2017-ci ildə ölkəmizin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması xalqın ürəyindən xəbər verən hadisə kimi tarixə düşdü. Mehriban Əliyeva ilk gündən Birinci vitse-prezident kimi dövlətə və xalqa layiqli xidmətin nümunəsini ortaya qoyub, Azərbaycanın yüksəlişinə, dünyada təbliğinə yeni töhfələr verib. Mehriban Əliyeva bu gün də sosial qayğıya, köməyə ehtiyacı olanların yanındadır. Biz bunu xüsusən pandemiya dövründə daha yaxından gördük.

44 günlük Vətən müharibəsində isə Mehriban Əliyevanın döyüşlərdə yaralanmış qəhrəman əsgər və zabitlərimizin müalicəsini birbaşa nəzarətinə götürməsi xalqımızın dərin rəğbəti ilə qaşılandı. Bu hadisə bir daha Mehriban Əliyevanın vətən və insan sevgisinin tərənnümü oldu. Eyni zamanda 44 günlük Vətən müharibəsi dövründə Mehriban Əliyevanın müraciətləri, "Instagram" səhifəsindəki paylaşımları xalqımızın bir amal uğrunda səfərbər olmasına xidmət etdi.

Birinci vitse-prezident Mehriban Əliyevanın çoxşaxəli və hər cəhəti ilə dövlətimizə və vətəndaşlarımıza xidmət edən fəaliyyəti nəticə etibarilə Prezident İlham Əliyevin inkişaf strategiyasının uğurla reallaşmasında, Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsində müstəsna rol oynayır. İndi Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyur və qarşıda bizi yeni möhtəşəm uğurlar gözləyir. Həmçinin işğaldan azad olunmuş torpaqlarımız yenidən qurulur. Görünən həm də odur ki, Mehriban Əliyeva öz fəaliyyəti ilə Qarabağın dirçəlişi prosesində də yaxından iştirak edir.

Mehriban Əliyeva üçün əziz olan bu gündə ona yeni uğurlar arzulayırıq. Əminik ki, Mehriban Əliyeva nümunəyə çevrilən missiyası ilə bundan sonra da dövlətimizin və xalqımızın yüksəlişinə böyük töhfələr verəcək.

Nəcib əməllərin təcəssümü

Şahin SEYİDZADƏ,
Milli Məclisin deputatı:

- Azərbaycan tarixinin istənilən səhifəsi örnək sayıla biləcək xanımlarla zəngindir. Müasir dövrdə respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva özünün ictimai-siyasi fəaliyyəti ilə bunun bariz nümunəsidir. Təsadüfi deyil ki, ölkə Prezidenti İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi cəmiyyətdə böyük rəğbətlə qarşılanmışdır.

Mehriban xanımın dövlətimizin möhkəmlənməsi yolunda gördüyü işlərin miqyasına nəzər yetirəndə, onun nə qədər çətin və məsuliyyətli işin öhdəsindən layiqincə gəldiyini gördükdə heyrətlənməmək qeyri-mümkündür. Onun uzun illər ərzində istər ölkə daxilində, istərsə də beynəlxalq platformalarda çoxşaxəli fəaliyyəti hər ötən gün Azərbaycanın inkişafına mühim töhfələr verir.

Mehriban Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondu dünya miqyasında çoxşaxəli, xeyirxah fəaliyyəti ilə seçilən, böyük layihələrə imza atan vətəndaş cəmiyyəti qurumudur. Ulu Öndərin ideya və əməllərini özündə cəmləşdirən bu əvəzsiz və unikal təsisat ölkədə və dünyada təhsil, elm, mədəniyyət, səhiyyə, ekologiya və digər sahələrdə müxtəlif istiqamətli layihələrin həyata keçirilməsində böyük nüfuz qazanmışdır. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr respublikamızın hüdudları ilə məhdudlaşmır, xüsusi ilə onun xeyriyyəçilik tədbirləri bir çox dünya ölkələrini əhatə edir. Fondun bir sıra xarici ölkələrdə həyata keçirdiyi layihələr dünyada sülhün, tolerantlığın və multikultural dəyərlərin təbliği baxımından müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycanın onlarca tarixi və maddi-mədəniyyət abidəsinin UNESCO-nun Ümumdünya Mədəni İrs Siyahısına daxil edilməsi Mehriban xanım Əliyevanın səmərəli və peşəkar fəaliyyətinin nəticəsində mümkün olmuşdur. Mehriban xanım Əliyeva UNESCO ilə yanaşı, həm də müsəlman, islam dünyasının mədəniyyətini özündə birləşdirən ICESCO-nun da xoşməramlı səfiridir və bu vəzifədə də müsəlman dünyasını layiqincə təmsil edir. Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı işinə, islam aləmində apardığı səmərəli fəaliyyətinə görə Mehriban Əliyevanın əməyi bu nüfuzlu təşkilat tərəfindən hər zaman ən yüksək səviyyədə qiymətləndirilmişdir.

Mehriban xanımın fəaliyyəti, gördüyü işlərin miqyası və şəxsi keyfiyyətləri barədə danışarkən cənab Prezident İlham Əliyevin illər əvvəl səsləndirdiyi fikri xatırlatmaq yerinə düşür: "O, insanlara xoş münasibəti, xoş niyyəti, xoş ünsiyyəti ilə seçilib. Bu, onun xasiyyətinin ən fərqləndirici cəhətidir. Mən əminəm ki, Mehriban Əliyeva xeyriyyəçilik, insanseverlik, mərhəmət, Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, düşüncəsinə, əsrlərdən bəri formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətləri davam etdirməyə çalışacaq".

Bu gün Mehriban xanımın doğum günüdür. Müasir Azərbaycan tarixinin banisi, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin ən yaxın silahdaşı, xalqımızın sevimlisi Mehriban Əliyevanı seçicilərimiz adından təbrik edir, Azərbaycanın parlaq gələcəyinin qurulması istiqamətində olan fəaliyyətində müvəffəqiyyətlər arzulayırıq.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"